Ədəbiyyat QƏZETİ

17 aprel / 2021

# Abuzər Turanın "Zəfər nəğməsi" Türkiyədə oxunur


Karabağ Zaferinin Destanı: Türkiye-Azerbaycan-Pakistan

EDEBİYAT VE GÖNÜL KÖPRÜSÜ

İttifak

Azərbaycan Yazıçılar Birliyi Moskva bölməsinin sədri, professor Abuzər Turanın (Bağırov) şanlı Qarabağ zəfərimizin poetik tərənnümü kimi qələmə aldığı və "Ədəbiyyat qəzeti"nin son saylarında dərc edilən "Zəfər nəğməsi" poeması Türkiyədə yayınlanan "İttifaq" qəzetində və "Koroğlu" dərgisinin aprel sayında çap olunub. Poemanı Türkiyə türkcəsinə İmdat Aşvar uyğunlaşdırıb. Qeyd edilib ki, poema bütövlükdə yaxın günlərdə Türk ədəbiyyatı və Bölgə Türk Kültür vəqfləri tərəfindən Azərbaycan, türk, urdu və ingilis dillərində kitab halında oxuculara təqdim olunacaq.

Eyni zamanda türkiyəli araşdırmaçı Mahmut Yüksel sözügedən qəzetdə "Zəfər nəğməsi" poeması haqqında əhatəli məqalə dərc etdirib. Məqalədə İkinci Vətən savaşı zamanı Azərbaycanın yanında olan, mənəvi baxımdan gücümüzə güc qatan qardaş Türkiyə və Pakistanın göstərdikləri həmrəylik, dövlət başçıları səviyyəsində olan qardaşlıq köməyi barədə ətraflı məlumat verilir. Bildirilir ki, "Zəfər nəğməsi" bu əbədi dostluğun poetik ifadəsi olaraq dərin minnətdarlıq və yüksək vətəndaşlıq duyğuları ilə qələmə alınıb.